Azərbaycan Respublikası
Sahibkarlığın İnkişafı Fondunun
Müşahidə Şurasının
“4” avqust 2021-ci il tarixli
07 nömrəli Qərarı ilə (Protokol № 07)
edilmiş dəyişikliklərlə
**Təsdiq edilmişdir**

**Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına güzəştli kreditin ayrılması məqsədilə müvəkkil kredit təşkilatları tərəfindən təqdim edilməli sənədlərin**

**S İ Y A H I S I**

1. Sahibkarlıq subyektinin ona dair məlumatların Fonda ötürülməsinə dair razılığını təsdiq edən sənədin əsli;
2. 200 000 (iki yüz min) manatadək kreditlər üzrə sahibkarlıq subyektinin investisiya layihəsinə dair məlumat, 200 000 (iki yüz min) manatdan böyük kreditlər üzrə investisiya layihəsi - biznes plan (məlumatların doğruluğu müvəkkil kredit təşkilatı və sahibkarlıq subyektinin səlahiyyətli nümayəndəsi tərəfindən imza və möhürlə təsdiq edilməklə);
3. “Kredit büroları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilmiş kredit hesabatı (əsli ilə düz olması müvəkkil kredit təşkilatının səlahiyyətli nümayəndəsi tərəfindən imza və möhürlə təsdiq edilməklə);
4. Kommresiya hüquqi şəxsin dövlət reyestrindən çıxarışının və ya fiziki şəxsin VÖEN-inin surəti (əsli ilə düz olması müvəkkil kredit təşkilatının səlahiyyətli nümayəndəsi tərəfindən imza və möhürlə təsdiq edilməklə);
5. Fiziki şəxsin və ya hüquqi şəxsin qanuni təmsilçisinin şəxsiyyət vəsiqəsinin surəti (əsli ilə düz olması müvəkkil kredit təşkilatının səlahiyyətli nümayəndəsi tərəfindən imza və möhürlə təsdiq edilməklə);
6. Sahibkarlıq subyektinin təqdim etdiyi investisiya layihəsi üzrə fəaliyyət göstərəcəyi yerə və ya əmlaka dair sənədlərin surətləri (əsli ilə düz olması müvəkkil kredit təşkilatının səlahiyyətli nümayəndəsi tərəfindən imza və möhürlə təsdiq edilməklə);
7. Avadanlığın alınmasına dair ilkin razılaşma sənədinin (əsas texniki-iqtisadi göstəriciləri barədə məlumat əlavə olunmaqla) surəti*;
8. Avadanlığın qiymətləndirilməsi haqqında sənədin surəti*;
9. Daşınar əmlakın yüklülüyünün dövlət reyestrindən əldə olunan yüklülük bildirişinin surəti (əsli ilə düz olması müvəkkil kredit təşkilatının səlahiyyətli nümayəndəsi tərəfindən imza və möhürlə təsdiq edilməklə)*;

10. Sahibkarlıq subyekti tərəfindən avadanlığın qiymətləndirilmiş satış dəyərinin minimum 20%-i (yerli istehsal məhsulu olan avadanlıqlar üçün 10%) həcmində müvəkkil kredit təşkilatına ilkin ödəniş həcmində bank hesabında vəsaitin olmasını (və ya müqaviləyə uyğun olaraq satıcıya ödənildiyini) təsdiq edən sənədin surəti*.

**Qeyd:**

* *Avadanlıq krediti üçün tələb olunur.*